AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

*"Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası" kafedrası*

**Magistratura səviyyəsi üçün**

**Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (060101) ixtisası üzrə**

# İF-M2512 "ORTA MƏKTƏBLƏR ÜÇÜN AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI PROQRAMI VƏ DƏRSLİKLƏR" FƏNNİNİN PROQRAMI

"Bakı Universiteti" nəşriyyatı
Bakı - 2022

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

***“Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası” kafedrası***

**Magistratura səviyyəsi üçün**

**Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (060101) ixtisası üzrə**

# İF-M2512 “ORTA MƏKTƏBLƏR ÜÇÜN AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI PROQRAMI VƏ DƏRSLİKLƏR” FƏNNİNİN PROQRAMI

Bakı Dövlət Universitetinin Filologiya fakültəsi Elmi Şurasının 03 iyun 2022-ci il tarixli 09 saylı iclas protokolu ilə təsdiq edilmişdir.

“Bakı Universiteti” nəşriyyatı
Bakı – 2022

**Tərtib edən:** **Saidə Şirzad qızı Mustafayeva**
*BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*

**Redaktor:** **Hüseyn Abbas oğlu Əsgərov**
*BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının müdiri, filologiya üzrə elmlər doktoru, professor*

**Rəyçilər:** **Məhbubə Əbdülhəmid qızı Qurbanova**
*BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru,*

**Şəlalə Cəlal qızı Abdullayeva**
*BDU-nun Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru*

© "Bakı Universiteti" nəşriyyatı



# İZAHAT VƏRƏQƏSİ

**Fənnin səciyyəsi** «Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklər» fənni əsas vasitə olan proqram və dərsliklərin - təhsilimizin dünya təhsil sisteminə inteqrasiyası baxımından maraq kəsb edən məsələləri özündə ehtiva edir. Bu fənn orta ümumtəhsil məktəbləri üçün Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə hazırlanmış təhsil proqramları, dərsliklər və ARETN saytında yerləşdirilmiş Tədris Resursları üzrə tədris edilir. Fənnin əsas mövzularını proqramların quruluşu, məzmunu, dərsliklərdəki materialların, dil qaydaları bölməsindəki məlumatların məzmun xətləri və məzmun standartlarının tələblərinə cavab verməsinin aydınlaşdırılması, həmçinin dərsliklərdə verilmiş mətnlər üzərində qurulan işin müasir təhsil səviyyəsi prizmasından analizi ilə əlaqəli məsələlərin aydınlaşdırılması təşkil edir.

**Fənnin məqsəd və vəzifələri.** Bu kursda magistrlər Orta məktəblər ücün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklərinin nəzəri əsaslarını öyrənir, həmçinin tədris prosesi üçün zəruri olan bilik və bacarıqları praktik aspektdə mənimsəyirlər. Müəllim hazırlığı işində vacib mərhələ olan «Orta məktəblər ücün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklər» fənninin keçirilməsində məqsəd magistrlərin müəllimlik peşəsinə hazırlığının yüksək səviyyəsinə nail olmaqdır.

Bu fənnin təlimdə əhəmiyyəti magistrlərə fənnin predmeti olan proqram və dərsliklərin məzmununu mənimsətmək, qarşıya qoyulmuş strateji vəzifə isə orta məktəbi yaxşı bilən gələcəyə dərslik müəllifi kimi formalaşan pedaqoji kadrların hazırlanmasıdır. «Təhsil alanın bir şəxsiyyət kimi formalaşdırılması», bunun qloballaşan dünyanın əsas tələbi kimi qəbul edilməsi müasir təhsilin demokratik xarakterinin bariz göstəricisidir. Bu təhsil sistemi həm milli, həm də bəşəri tələblərə söykənir, ardıcıl sistemli xarakter daşıyır, təlabatın tədricən artırılmasına əsaslanır. Proqram və dərsliklər üzrə praktik məşğələlərin aparılması, dərsliklərin hazırlanması üçün zəruri olan vərdişlərin əldə edilməsi və təkmilləşdirilməsi, seçilmiş mətnlərin məzmum xətlərinə uyğunluğunun müəyyənləşdirilməsi üzrə işin başlıca istiqamətləri bu kursda öyrədilir.

**Fənnin tədrisində magistrlər bilməlidir.** II tədris semestrində keçilən bu fənnin həm nəzəri, həm də təcrübi əhəmiyyəti vardır. Belə ki, «Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklər» fənni magistrlərə pedaqoji və metodiki kurslarda əldə etdikləri bilikləri zənginləşdirməyə kömək edir; bu biliklər əsasında professional pedaqoji fəaliyyətdə zəruri olan metodiki biliklərin mənimsədilməsi işini tənzimləyir. Təlim prosesi və onun təşkilində əsas olan proqram, dərslik və müəllim üçün metodik vəsaitlərin hazırlanması üsullarının düzgün anlaşılması və mənimsədilməsi işi metodikanın qayda-qanunlarına riayət etməklə sıx bağlıdır. Bunun üçün «Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklər» fənni qarşısında duran bir sıra məsələlər həll olunmalıdır. Bu məsələlər nəzəri biliklərlə bağlı olduğu qədər magistrların psixoloji-əxlaqi davranış, kommunikativlik bacarığının inkişaf etdirilməsi problemi ilə də əlaqədardır.

Magistrlərə fənnin predmeti olan proqram və dərsliklərin məzmununu mənimsətməkdə qarşıya qoyulmuş əsas strateji vəzifə isə orta məktəbi yaxşı bilən gələcəyə dərslik müəllifi kimi formalaşan pedaqoji kadrların hazırlanmasıdır. Kurrikulum islahatı»nın nəticəsi olaraq, artıq Azərbaycanda inteqrativ xarakterli təhsil sistemi uğurlu nəticəsini göstərməkdədir. «Təhsil alanın bir şəxsiyyət kimi formalaşdırılması», bunun qloballaşan dünyanın əsas tələbi kimi qəbul edilməsi müasir təhsilin demokratik xarakterinin bariz göstəricisidir. Bu təhsil sistemi həm milli, həm də bəşəri tələblərə söykənir, ardıcıl sistemli xarakter daşıyır, tələbatın tədricən artırılmasına əsaslanır.

**Fənnin tədrisində magistrlər bacarmalıdırlar.**

- Proqram və dərsliklərlə işləməyi;
- Müasir təlim materialları ilə bağlı internet (tədris) resurslarından istifadə etməyi;
- Müasir təlim texnologiyalarından istifadə etməyi;
- Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə proqram və dərsliklərin hazırlanması üzrə təşkil olunmuş işin başlıca istiqamətlərini peşəkar səviyyədə qiymətləndirməyi.

**Fənnin tədrisində magistrlər yiyələnməlidirlər.**

- konkret tədris-metodiki məqsədə nail olub pedaqoji vərdişlərə;



- Azərbaycan dili və ədəbiyyatı fənlərinin düzgün tədrisinin incəliklərinə;
- dilimizə və ədəbiyyatımıza dərin maraq və məhəbbət hissini formalaşdırmağın yollarına, metodlarına.

**Fənnin başqa fənlərlə əlaqəsi.** Bu fənn Azərbaycan dilinin tədrisi metodikası, Ədəbiyyatın tədrisi metodikası, Qrammatika problemləri Pedaqogika, Məntiq, Psixologiya fənləri ilə əlaqələndirilir. Nəzərdə tutulur ki, proqram və dərsliklər, onların məzmunu, ideyası, əhəmiyyəti, dərsliklərdəki materialların məzmun xətləri və məzmun standartlarının tələblərinə cavab verməsinin aydınlaşdırılması məqsədi ilə mətnlərin oxunması, müzakirə edilməsi, müasir təhsil səviyyəsi prizmasından analizi dünya təhsil sisteminin məzmununu anlamağa və həmin sistemə keçmənin elmimizin inkişafı baxımından əhəmiyyətini qiymətləndirməyə kömək edər.

**Fənnin tədrisi formaları.** Filologiya fakültəsi üzrə magistr təhsilinin I ilində (II semestrində) tədris edilən «Orta məktəbin Azərbaycan dili və ədəbiyyatı proqram və dərslikləri» fənninə ayrılan dərs yükünün həcmi 60 saatdır. Mühazirə və məşğələ formasında keçirilir. Mühazirə mövzularının əsas mənbəyi orta ümumtəhsil məktəbləri üşün Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə hazırlanmış təhsil proqramları, dərslər və ARTN saitində yerləşdirilmiş Tədris Resurslarıdır. Dərslərdə proqram və dərsliklərlə işləmə imkanlarının nümayişi məqsədi ilə video çarxlardan da istifadə olunur.

**Fənnin tədris planında yeri.** Filologiya fakültəsinin magistr səviyyəsində (050101) Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisası üzrə **İF-M 2512** «Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı proqramı və dərsliklər» fənni tədris olunur. Fənnə 60 saat ayrılıb — 30 saat mühazirə, 30 saat məşğələ. Fənnin həcmi mütəxəssis hazırlığı üzrə Dövlət Standartının tələblərinə uyğundur.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Cəmi: | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Müh. | Müh. |
| 1. | Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı fənnlərinin proqramları | 4 | 2 | 2 |
| 2. | V sinif üzrə Azərbaycan dili dərsliyi və MMV | 4 | 2 | 2 |
| 3. | VI sinif üzrə Azərbaycan dili dərsliyi və MMV | 4 | 2 | 2 |
| 4. | VII sinif üzrə Azərbaycan dili dərsliyi və MMV | 4 | 2 | 2 |
| 5. | VIII sinif dərsliyindəki materialların əsas standartlara uyğunluğu. MMV | 4 | 2 | 2 |
| 6. | IX sinif Azərbaycan dili dərsliyinin əsas standartlara uyğunluğu. MMV (IX sinif) | 4 | 2 | 2 |
| 7. | X sinif Azərbaycan dili dərsliyində dilçilik məsələləri. X sinif üzrə MMV | 4 | 2 | 2 |
| 8. | XI sinif üzrə Azərbaycan dili dərsliyi və MMV | 4 | 2 | 2 |
| 9. | V siniflər üçün ədəbiyyat dərslikləri və MMV | 4 | 2 | 2 |
| 10. | VI sinif ədəbiyyat dərsliyinin standartlara uyğunluğu. MMV | 4 | 2 | 2 |
| 11. | VII siniflər üçün ədəbiyyat dərslikləri və MMV | 4 | 2 | 2 |
| 12. | VIII siniflər üçün ədəbiyyat dərsliyi | 4 | 2 | 2 |
| 13. | IX sinif üzrə ədəbiyyat dərsliyi və MMV | 4 | 2 | 2 |
| 14. | X sinif üzrə ədəbiyyat dərsliyi və MMV | 4 | 2 | 2 |
| 15. | XI sinif üzrə ədəbiyyat dərsliyi və MMV | 4 | 2 | 2 |
| | **Cəmi:** | **60** | **30** | **30** |



# MÖVZULAR VƏ ONLARIN QISA MƏZMUNU

## 1. Orta məktəblər üçün Azərbaycan dili və ədəbiyyatı fənnlərinin proqramları

Ümumtəhsil orta məktəbləri üçün Azərbaycan dili və ədəbiyyatı fənləri üzrə proqramlar 2006-ci ildən hazırlanaraq çap edilmişdir. Azərbaycan dili fənninin proqramında mövzular məzmun xətləri üzrə müəyyənləşdirilmiş 4 məzmun xətti – dinləyib-anlama və danışma, oxu, yazı, dil qaydaları verilmiş və bunlara uyğun olaraq əsas və alt standartlar təqdim edilmişdir. Dilçiliyin şöbələrinin tədrisi V-IX siniflər üzrə sistemli şəkildə planlaşdırılmışdır. X-XI siniflərdə isə dil qaydaları üzrə təkrarlar dil və dilçilik məsələlərinə aid mövzuların sistemli tədrisinin bölgüsü verilmişdir.

Ədəbiyyat fənninin proqramında da mövzular məzmun xətləri üzrə müəyyənləşdirilmiş 3 məzmun xətti – 1. Ədəbiyyat və həyat həqiqətləri, 2. Şifahi nitq, 3. Yazılı nitq verilmiş və bunlara uyğun olaraq əsas 1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir, 1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir. 2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir. 3.1. Yazılı nitq bacarıqları nümayiş etdirir və alt standartlar təqdim edilmişdir

## 2. V sinif üzrə Azərbaycan dili dərsliyi və MMV

R.İsmayılov, D.Cəfərov, G.Xudiyeva, X.Qasımova. Azərbaycan dili, V sinif üçün dərslik «Altun kitab», Bakı, 2012 Dərslikdə altı bölmə üzrə müxtəlif mətnlər verilir. Ana dili üzrə fənn kurikulumuna (Dövlət Proqramına) uyğun olaraq məzmun xətləri (dinləyib anlama və danışma, oxu, yazı və dil qaydaları) üzrə şagirdyönümlü tədrisin reallaşması və şagird naliyyətlərinin əldə olunması tələbi irəli sürülür. Hər bir dərs şagirdin müstəqil tədqiqatına imkan yaradan mətnlə başlayır, sonra «Söz ehtiyatı», «Düşün və cavab ver», «Yazı» və «Dil qaydaları» hissələri verilir. «Dil qaydaları» hissələri verilir. «Dil qaydaları» hissəsində danışıq səsləri, o cümlədən, saitlər və samitlər, ahəng qanunu, əlifba, heca və vurğu öyrədilir.

Bəhs «Fonetik təhlil»lə yekunlaşır. «Leksika» bəhsində söz haqqında, sözün həqiqi və məcazi mənası, təkmənalı və çoxmənalılıq haqqında məlumat verilir. Sonrakı saatlar leksik söz qrupları, «Frazeoloji birləşmələr» və əsas nitq hissələrindənisim, sifət və feilin müəyyən kateqoriyalarının öyrədilməsinə verilir.

Hər bölmənin sonunda «Dil qaydaları üzrə təkrar» verilir.

**V sinif üzrə müəllim üçün metodik vəsait (MMV)**

R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova. Azərbaycan dili MMV, «Altin kitab», Bakı, 2012.

V sinif üçün tərtib olunmuş MMV-də ayrı-ayrı fəal/interaktiv dərslərin aparılması üçün lazım olan metodik yollar göstərilir. Hər bir dərsin əvvəlində standartlar və təlim məqsədləri, fəal dərsin mərhələləri açıqlanır: motivasiya, oxu, söz ehtiyatı, danışma, dil qaydaları və qiymətləndirmə. Dərsin gedişində fəndaxili (şaquli və üfüqi) və fənlərarası inteqrasiyadan, BİBÖ, auksion, akvarium, ziqzaq, müzakirə, qruplarla iş kimi metod, üsul və vasitələrdən ifadə olunması tövsiyə olunur. MMV-də hər bölmədən sonra bölmə üzrə kiçik summativ qiymətləndirmə verilir.

## 3. VI sinif üzrə Azərbaycan dili dərsliyi və MMV

R.İsmayılov, D.Cəfərova, S.Məmmədova. Azərbaycan dili VI sinif üçün dərslik. «Altun kitab», Bakı, 2013.

A.Rüstəmova, R.İsmayılov, D.Cəfərova. Azərbaycan dili MMV, «Altun kitab», Bakı 2013.

Dərslikdə altı bölmə üzrə müxtəlif mətnlər verilir. Ana dili üzrə fənn kurikulumuna (Dövlət proqramına) uyğun olaraq məzmun xətləri (dinləyib – anlama və danışma, oxu, yazı və dil qaydaları) üzrə şagirdyönümlü tədrisin reallaşması və şagird nailiyyətlərinin əldə olunması tələbi irəli sürülür. Hər bir dərs şagirdin müstəqil tədqiqatına imkan yaradan mətnlə başlayır, sonra «Söz ehtiyatı», «Düşün və cavab ver», «Yazı» və «Dil qaydaları» hissələri verilir. «Dil qaydaları» hissəsində nitq hissələri, o cümlədən ismin qurluşca növləri və halları, düzəltmə sifətlər, say və onun məna və qurluşca növləri, əvəzlik, felin qurluşca növləri, şəkilləri, zərf haqqında məlumat, sintaksisə hazırlıq materialları (cümlənin qrammatik əsası) və dil qaydalarına uyğun



çalışma və tapşırıqlar təqdim olunur. Hər bölmənin sonunda «Ümumiləşdirici təkrar» verilir.

VI sinif üçün tərtib olunmuş MMV-də dərslərin aparılması üçün metodik yollar göstərilir. Hər bir dərsin əvvəlində standartlar və təlim nəticələri fəal dərsin mərhələləri qeyd olunur: motivasiya (bəzi dərslərin əvvəlində diaqnostik qiymətləndirmə verilir), oxu (istiqamətləndirilmiş oxu), söz ehtiyatı, danışma//dinləmə, dil qaydaları və qiymətləndirmə. «Yazı» hissəsində müxtəlif xarakterli (nəqli, mahakimə və təsviri) mətnlər tərtib olunması tələb olunur. Dərsin gedişində fəndaxili (şaquli və üfüqi) və fənlərarası inteqrasiyadan, qərarlar ağacı, istiqamətləndirilmiş oxu, debat, konfrans, beyin həmləsi, BİBÖ, sual müsabiqəsi, diskussiya, sankveyn, müzakirə cütlərlə iş, qruplarla iş kimi metod, üsul və vasitələrdən istifadə olunması tövsiyə olunur. MMV-də hər bölmədən sonra bölmə üzrə kiçik summativ qiymətləndirmə verilir.

## 4. VII sinif üzrə Azərbaycan dili dərsliyi və MMV

R.İsmayılov, A.Rüstəmov, H.Allahverdi, S.Məmmədova. Azərbaycan dili VII sinif üçün dərslik. Bakı, 2014.

A.Rüstəmova, H.Allahverdi, D.Cəfərova, S.Məmmədova. Azərbaycan dili, MMV, Bakı, 2014.

Dərslikdə yeddi bölmə üzrə müxtəlif mətnlər verilir. Ana dili üzrə fənn kurikulumuna (Dövlət proqramına) uyğun olaraq məzmun xətləri (dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları) üzrə şagirdyönümlü tədrisin reallaşması və şagird naliyyətlərinin əldə olunması tələbi irəli sürülür. Hər bir dərs şagirdin müstəqil tədqiqatına imkan yaradan mətnlə başlayır, sonra «Söz ehtiyatı», «Düşün və cavab ver», «Yazı» və «Dil qaydaları» hissələri verilir. «Dil qaydaları» hissəsində felin qrammatik məna növləri, idi, imiş, isə hissəcikləri və onların yazılışı, feilin təsriflənməyən formalrı, qoşma, bağlayıcı, ədat, modal sözlər və nidalar, köməkçi nitq hissələrinin qrammatik omonimliyi, cümlənin qurluşca növləri (sintaksisə hazırlıq) haqqında məlumat təqdim olunur.

MMV-də fəal/interaktiv dərslərin aparılması üçün lazım olan metodik yollar, standartlar və təlim nəticələri qeyd olunur, fəal dərsin

mərhələləri açıqlanır: motivasiya, oxu (istiqamətləndirilmiş oxu), söz ehtiyatı, danışma // dinləmə, dil qaydaları və qiymətləndirmə. Dərsin gedişində fəndaxili və fənlərarası inteqrasiyadan, müzakirə, proqnozlaşdırma, sillogizmlər, istiqamətləndirilmiş oxu, ziqzaq, BİBÖ, anlayışın çıxarılması, beyin həmləsi, müzakirə, cütlərlə iş, qruplarla iş və digər bu kimi metod, üsul və vasitələrdən istifadə olunması tövsiyə olunur. MMV-də hər bölmədən sonra bölmə üzrə kiçik summativ qiymətləndirmə verilir.

## 5. VIII sinif dərsliyindəki materialların əsas standartlara uyğunluğu. MMV

T.Hacıyev, S.Bektaşi, M.Vəliyeva, Y.Hüseynova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün dərslik, Bakı, 2015;

Y. Hüseynova, S. Bektaşi. Azərbaycan dili. VIII sinif. MMV, Bakı, 2015.

Burada dərsliyin altı bölmədən ibarət olduğu qeyd olunur. Dərslikdə *dinləyib-anlama və danışma, nitqi zənginləşdirmə, qrammatik sual və tapşırıqlar, yazı, lüğət, dil qaydaları və açar sözlər* üzrə şərti işarələr verilir. Ayrı-ayrı məzmun xətlərinə dair verilən suallar qrammatik materialın da mənimsənilməsinə xidmət göstərir. Mətnlərin sonunda müsahibə əsasında qısa mətn, konkret bir mövzuda inşa, mühakimə xarakterli inşa, nəqli xarakterli mətn yazmaq, konkret etiketlərdən istifadə etməklə dialoq qurmaq və s. tapşırıqlar verilir. Verilən materiallardan istifadə yolu ilə esse və s. tapşırıqlar verilir. Verilən materiallardan istifadə yolu ilə esse və məqalə yazmaq tapşırılır. Məqalə yazmaq üçün yaddaş təqdim olunur.

Dil qaydaları: *söz birləşmələri, onların növləri, mürəkkəb adlar, sintaktik əlaqələr,cümlə üzvləri, o cümlədən, mübtəda,xəbər, tamamlıq, təyin, zərflik, cümlə üzvlərinin sıralanma qaydası,əlavələr, həmcins üzvlər, xitab və ara sözlər, söz –cümlə, cümlənin məqsəd və intonasiyaya görə növləri(əmr, nida cümlələri), müəyyən şəxsli, qeyri-müəyyən şəxsli, ümumi şəxsli cümlələr şəxssiz cümlələr və adlıq cümlələr.*

MMV-də aşağıdakı materiallar öz əksini tapmışdır: 1) 8-ci sinif üçün Azərbaycan dili fənni üzrə məzmun standartları; 2) təlim formaları; 3)Azərbaycan dili dərsinin təşkilində istifadə olunan metod və üsullar; 4) illik planlaşdırma cədvəli; 5) şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr; 6) cari planlaşdırma nümunələri; 7) KSQ vasitələri; 8) şagirdlərin öyrənmə tərzi; 9) istifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr.



## 6. IX sinif Azərbaycan dili dərsliyinin əsas standartlara uyğunluğu. MMV (IX sinif)

T.Hacıyev, S.Bektaşi, Y.Hüseynova. Azərbaycan dili. IX sinif üçün dərslik. Bakı, 2016;

S.Cavadova. Azərbaycan dili. IX sinif üzrə müəllim üçün metodik vəsait. Bakı, 2016.

Dərslik dörd bölmədən ibarətdir: «Dil, təhsil və cəmiyyət», «Müvəffəqiyyət və cəmiyyət», «Mənəviyyat və cəmiyyət» və «Mədəni irs və cəmiyyət». I və II bölmələrdə yeddi, III bölmədə səkkiz, IV bölmədə isə beş mətn verilmişdir. Mətnlər onların müxtəlif hissələrinə, mətndə söylənilmiş fikirlərə, mətni davam etdirməyə və şagirdlərin müstəqil düşüncəsinə yönəldilmiş suallarla əhatə olunur. Təlim üsulları təqdim edilir. Rabitəli nitqin inkişafı baxımından hər hansı bir mövzuda dialoq qurmaq, mühakimə və nəqli xarakterli mətn yazmaq, faktlara əsasən rabitəli məyn qurmaq, hekayə yazmaq tapşırılır (plan əlavə olunur).

Dərslikdə mürəkkəb cümlə haqqında məlumat verilir, tabesiz və tabeli növləri izah olunur. Dərsliyin sonuncu qrammatik məlumatı vasitəsiz və vasitəli nitq haqqındadır.

IX sinif üzrə müəllim üçün metodik vəsaitdə bağlama vasitələrindən danışılır, durğu işarələrinə daha çox diqqət yetirilir. Sonra tabeli mürəkkəb cümlə, komponentlər arasındakı bağlayıcı vasitələr və durğu işarələri haqqında məzmun standartlarına uyğun məlumat verilir.

## 7. X sinif Azərbaycan dili dərsliyində dilçilik məsələləri. X sinif üzrə MMV

T.Hacıyev, S.Bektaşi, Y. Hüseynova. Azərbaycandili. X sinif üçün dərslik. Bakı, 2017.

S.Cavadova. Azərbaycan dili. MMV, IX sinif, Bakı, 2017.

Dərslik 4 bölmədən ibarətdir: *Dil və cəmiyyət; Təbiət və biz; Ailə və cəmiyyət; Milli irsimiz.*

Dərslikdə, il ərzində mətn üzərində iç aparmaq üçün istifadə ediləcək sxem təqdim olunur: sxemdə mətnin təqdimedilmə forması, strukturu, lüğət tərkibi və sintaksisi açıqlanır. Ayrı-ayrı şəxsiyyətlərin dil haqqında fikirləri verilir, sual və tapşırıqlar əsasında mətn üzərində iş aparılır.

Dil haqqında qrammatik materiallar- dil qaydaları verilir: *dil ünsiyyət vasitəsi kimi, digər ünsiyyət vasitələri, dilin irqi və irsi cəhətlərlə bağlı olmaması, yazı və onun tipləri, nitq mədəniyyəti, Azərbaycan ədəbi dilinin norma və üslubları, onların səciyyəvi xüsusiyyətləri* haqqında məlumat verilir.

İşgüzar sənədlərdən *rəy* yazmaq və məruzə hazırlamaq üçün göstərişlər verilir və nümunə təqdim olunur. Dərslikdə məruzə və qəzet forması təqdim olunur.

MMV-də aşağıdakı materiallar öz əksini tapmışdır: 1) 10-cu sinif üçün Azərbaycan dili fənni üzrə məzmun standartları; 2) təlim formaları; 3)Azərbaycan dili dərsinin təşkilində istifadə olunan metod və üsullar; 4) illik planlaşdırma cədvəli; 5) şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr; 6) cari planlaşdırma nümunələri; 7) KSQ vasitələri; 8) şagirdlərin öyrənmə tərzi; 9) istifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr

### 8. XI sinif üzrə Azərbaycan dili dərsliyi və MMV

T.Hacıyev, S.Bektaşi. Azərbaycan dili. XI sinif üçün dərslik. Bakı, 2018.

XI sinif dərsliyi 4 bölmədən ibarətdir: «Vətəndaş və cəmiyyət», «Ətraf aləm və biz», «Fərd və cəmiyyət» və «Azərbaycan». Dərsliyin əsas hissəsini «Üslubiyyat» bölməsinə dair biliklər təşkil edir. Dərsliyin əvvəlində ayrı-ayrı üslubların funksiyalarına dair sxem-tapşırıq verilir. Mətn üzrə aparılan işlərin sonunda bu dil qaydalarına yer verilir: *sözün üslubi vəzifəsi, poetizm və ya bədii söz,elmi üslub və sözün terminoloji xüsu-siyyəti, fərdi üslubun funksional üslublar içərisində yeri, bədii üslubun ifadə vasitələri ellipsis, metafor, bədii təzad bədii xitab* haqqında məlumatlar verilir, Azərbaycan Respublikasının Konstitusiyasından nümunələr gətirilir. Dərslikdə hekayə yazmaq, təqdimat hazırlamaq barədə tapşırıqlar da verilir.



11-ci sinif üçün MMV-də Azərbaycan dili fənni üzrə məzmun standartları; 2) təlim formaları; 3) Azərbaycan dili dərsinin təşkilində istifadə olunan metod və üsullar; 4) illik planlaşdırma cədvəli; 5) şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair tövsiyələr; 6) cari planlaşdırma nümunələri; 7) KSQ vasitələri; 8) şagirdlərin öyrənmə tərzi; 9) istifadə olunmuş və müəllimin istifadə edə biləcəyi mənbələr

### 9. V siniflər üçün ədəbiyyat dərslikləri və MMV

Burada V siniflər üçün tərtib olunan ədəbiyyat dərsliklərinin sistemli ədəbiyyat kursuna hazırlıq məqsədi daşıdığı və ədəbiyyatdan *fənn kurikulumuna* uyğun hazırlandığı qeyd edilir.

Birinci, A.Süleymanova, T.Bağırova, İ.Muradova Ədəbiyyat. 5-ci sinf dərsliyində «Ədəbiyyat fənni vasitəsilə nəyi öyrənəcəksən» və «Oxu haqqında nə bilirik» başlıqları ilə verilir. Sonrakı mətnlər isə ədəbiyyat nəzəriyyəsi materiallarına dair - *bədii əsərlədə təsvir, bədii əsərlərdə ideyanın müəyyən edilməsi,bədii əsərlərdə fikrin obrazlı ifadəsi, bədii əsərin hissələri,bədii əsərlərdə nəqletmə, bədii əsərlərdə obrazlar, nəqletmə xarakterli əsərin quruluşu başlıqları* altında edilir.

Hər başlıq altında müxtəlif şair və yazıçıların əsərləri və ya əsərlərindən parçalar və həmin mətnlərə aid konkret tapşırıqlar verilir: *əsər üzərində iş, bədii təsvir vasitələrinin müəyyən edilməsi, mətnin hissələrini müəyyənləşdirmək, proqnozlaşdırma* və s.

Klassik, həm müasir mövzularda yazılmış əsərlərə, həm də şifahi xalq ədəbiyyatı nümunələrinə müraciət edilir: *N.Gəncəvi. «İsgəndərin taxta çıxması»; S.Vurğun «Azərbaycan» şeiri; M.Çəmənli «İgid Mübariz»; «Çillələr» əfsanəsi* və s.

Bölmələrin sonunda konkret bir mövzuda essenin yazılması, nəqletmə xarakterli essenin yazılması, esse üzərində iş, essenin yoxlanılması, barədə tələblər verilir, *layihə* təqdim edilir.

Dərsliyin sonunda "Sinifdənxaric oxu" materialları təqdim olunur.

İkinci, S.Əliyed və d., Ədəbiyyat 5-ci sinif dərsliyi 7 başlıqdan (bölmədən) ibarətdir. Dərslikdəki ədəbiyyat materialları aşağıdakı kimi verilir:

*Şifahi xalq ədəbiyyatı inciləri; Yurd sevgisi, ana məhəbbəti; Mənəvi dəyərlər, həmişəyaşar hikmətlər; Müharibə və insan haqqı; Uşaq dünyası, uşaq taleyi; Əməyə məhəbbət, zəhmətə çağırış; Təbiətin gözəlliyi, təbiətə qayğı.*

Hər bölmədə bədii ədəbiyyat materialları verilir; birinci başlığa aid mətnlər: *Ana maral (əfsanə); Xalq öz vətənini necə tapdı (Şimali Amerika əfsanəsi); Yetim İbrahimin nağılı; Üç qardaş (özbək nağılı).*

Bölmələrin sonunda qiymətləndirmə materialı verilir.

Dərsliyin sonunda ifadəli oxuda istifadə olunan şərti işarələr, layihələr, lüğət və dərslikdəki bəzi terminlərin izahı verilir.

MMV-lərdə «Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarının tətbiqi»; «Layihələr üzrə işin təşkili»; «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri. Fənlərarası inteqrasiya"; «Ədəbiyyat fənni üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi» kimi məsələlər öz əksini tapır.

## 10. VI sinif ədəbiyyat dərsliyinin standartlara uyğunluğu. MMV

Dərsliyin «Giriş»ində R.Əfəndiyevin «Elm tükənməz xəzinədir» mətni, «Şah Abbas və iki vəzir» nağılı əsasında şagirdlərin oxu bacarıqlarına yiyələnməsi, Yusif Balasaqunlunun «Qutadqu bilik - Səadət gətirən elm» əsərinin vasitəsilə oxu və yazı prosesinə nəzər salınır.

Mətnlər üç başlıq altında verilir: *1) bədii əsərlərdə təsvir; 2) bədii əsərlərdə nəqletmə; 3) bədii əsərlərdə təsvir-nəqletmə*

1. M.Rzaquluzadə. «Vurğun baxışlarla»; B.Vahabzadə «Qocalar»;
2. Kamal Turan «Üç nəfərin imtahanı»; N.Gəncəvi «Yaralı bir uşağın dastanı»;
3. Əli Səmədli «Qanlı bənövşə»; «Kitabi-Dədə Qorqud», «Basatın Təpəgözü öldürdüyü boy».

Hər bir mətndən sonra yazıçı və ya şairin tərcümeyi-halı və yaradıcılığı haqqında qısa məlumat verilir.

*İnsanın təsviri (ictimai varlıq kimi); oxunun təşkili cədvəli(dərk edərək oxu); yazaq, yaradaq, yazıya hazırlıq, yazı, qarşılıqlı yoxlama, təqdimat; özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə; obrazlar və onların müxtəlif cəhətlərdən təsviri; əsərdəki hadisələrin ardıcıllığının müəyyən edilməsi, esse yazılığına hazırlıq, essenin planı.*



«Bunu bilməlisən» başlıqları altında ədəbiyyat nəzəriyyəsi materialları verilir: *bədii sual, mübaliğə, təmsil, əfsanə, dastan.*

Dərsliyin sonunda nəqletmə-təsviri xarakterli əsərlər *layihə* materialları kimi təqdim olunur.

MMV-də «Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarının tətbiqi»; «Layihələr üzrə işin təşkili»; «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırıl.» və d. bu kimi məsələlər öz əksini tapır

## 11. VII siniflər üçün ədəbiyyat dərslikləri və MMV

VII sinif dərsliyinin «Şifahi ədəbiyyatdan seçmələr»lə açıldığı bildirilir.

Bölmələr: *Vətən sevgisi, qəhrəmanlıq səhifələri; Mənəvi idəyərlər, həmişəyaşar hikmətlər; Uşaq aləmi, uşaq taleyi; Təbiətə vurğunluq, təbiətə qayğı.*

Azərbaycan və dünya ədəbiyyatından seçmələr verilir.

Dərsliyin sonrakı hissələrində «İnşa və esseni necə yazmalı?», «Layihələr üzrə iş» və «Sinifdənxaric oxu materialları» təqdim olunur.

Hər bir bölmənin sonunda «Qiymətləndirmə materialı» verilir.

I bölmə: *«Dərzi şagirdi Əhməd(nağıl)»; «Durna teli» (dastan).*

*Qiymətləndirmə materialı* «Xəzinəqaya əfsanəsi», dahasonra «Arıların qəzəbi» nağılılı kimi təqdim olunur.

II bölmə: *«Azərbaycan»* (S.Vurğun); *«Odlu qılınc»* (M.Hüseyn); *«Azad»* (M.İbrahimov); *«Vətəndaş»* (B.Vahabzadə) və s.

*Mühakimə* xarakterli inşanın yazılması nəzərdə tutulur.

MMV-lərdə «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri və s.öz əksini tapır.

## 12. VIII siniflər üçün ədəbiyyat dərsliyi. MMV

Burada VIII sinif ədəbiyyat dərsliyinin sistemli ədəbiyyat kursunun birinci hissəsini əhatə etdiyi qeyd edilir. Dərslik beş bölmədən ibarətdir:

1. «Qədim dövr Azərbaycan ədəbiyyatı (ən qədim zamanlardan XIII əsrə qədər)»: «Kitabi-Dədə Qorqud» dastanından «Qazan bəyin

oğlu Uruz bəyin dustaq olduğu boy»; X.Şirvaninin «Gənclərə nəsihət», N.Gəncəvinin «Sultan Səncər və qarı».

*Qiymətləndirmə materialı*: «Qazılıq Qoca oğlu Yeynək boyu».

2. «Orta dövr Azərbaycan ədəbiyyatı (XIII əsrdən XVII əsrə qədər)»: İ.Nəsimi. «Ağrımaz» Xətayi. «Bahariyyə», M.Füzuli. «Söz».

*Qiymətləndirmə materialı*: Qurbani. «Bənövşəni»

«Yeni dövr Azərbaycan ədəbiyyatı (I mərhələ-XVII-XVIII əsrlər)»: «Koroğlu ilə Bolu bəy», M.P.Vaqif «Hayıf ki, yoxdur...»

*Qiymətləndirmə materialı*: S.Təbrizi «Söz» qəzəli.

3. «Yeni dövr Azərbaycan ədəbiyyatı»nın II mərhələsi, XIX əsr:

Q.Zakir. «Durnalar», A.Ələsgər. «Dağlar», S.Ə.Şirvani «Qafqaz müsəlman larına xitab». *Qiymətləndirmə materialı*: Aşıq Alı. «Bənzərsən».

III mərhələ, XX əsrin əvvələri: a) C.Məmmədquluzadə. «Qurbanəli bəy», M.Ə.Sabir. «Əkinçi», Ə.Haqverdiyev. «Bomba».

*Qiymətləndirmə materialı:* A.Şaiq. «Məktub yetişmədi»;

b) M.Hadi. «Türkün nəğməsi», H.Cavid. «Ana» və Məhmət Akif Ərsoy. «İstiqlal marşı».

*Qiymətləndirmə materialı:* Y.V.Çəmənzəminli «Zeynal bəy»

İnformasiya xarakterli mətni--*məruzəni* necə yazmaq barədə göstərişlər verilir:

I yarımil üçün «Qədim və orta dövr ədəbiyyatında insan və təbiət» (müsabiqə), II yarımil üçün «Yeni dövr (XX əsrin əvvəlləri) ədəbiyyatında ictimai ziddiyyətlərin və nöqsanların təsviri» (ədəbi-bədii gecə) mövzularında layihələr verilir. «Sinifdənxaric oxu materialları» (bölm. üzrə) verilir.

MMV-lərdə «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri və s. öz əksini tapır.

## 13. IX sinif üzrə ədəbiyyat dərsliyi və MMV

IX sinif ədəbiyyat dərsliyi sistemli ədəbiyyat kursunun ikinci hissəsini əhatə edir. 1. Ən yeni dövr Azərbaycan ədəbiyyatının I mərhələsi:

a) Milli-mədəni dirçəliş və AXC dövründə ədəbiyyat (1918-1920): Ə. Cavad. «Azərbaycan bayrağına», C.Cabbarlı. «Ana».



b) «İctimai-siyasi ziddiyyətlər və repressiya dövründə ədəbiyyat (1920-1940)»: A.Şaiq «Anabacı», Y.V.Çəmənzəminli, «Zeybək qızı», A.İldırım. «Əsir Azərbaycanım». M.Müşfiq «Həyat sevgisi».

*Qiymətləndirmə materialı:* S.Hüseynin «İki həyat arasında».

c) I mərhələnin sonuncu hissəsi «İkinci Dünya müharibəsi dövründə ədəbiyyat (1941-1945)». Qısa icmal, S.Vurğun. «Ananın öyüdü», S.Rüstəm. «Təbrizim», Mir Cəlal. «Vətən yaraları».

*Qiymətləndirmə materialı:* M.Hüseynin «Nişan üzüyü» hekayəsi.

Yeni dövr, II mərhələ. «XX əsrin ortalarından günümüzə qədər ədəbiyyat»:

a) müharibədən sonrakı dövrdə ədəbiyyat (1946-1960). Qısa icmal. «Dünya ədəbiyyatından seçmə» başlığı altında E.Heminque. «Qoca və dəniz». M.Şəhriyar. «Heydərbabaya salam», M.İbrahimov. «Gələcək gün».

*Qiymətləndirmə materialı:* B.Azəroğlu «Buludlar».

b) Milli özünəqayıdış dövründə ədəbiyyat, 1961-1990-cı illər.

*Birinci hissə:* Qısa icmal, R.Rza. «Çinar ömrü», İ.Şıxlı «Namərd gülləsi», İ.Hüseynovun «Zəhər», M.Arazın «Əsgər məktubu» əsərləri verilir. *Qiymətləndirmə materialı:* Ə.Kürçaylı. «Şəhid meşə».

*İkinci hissə*, Ə.Kərim. «Qaytar ana borcunu», Anar. «Keçən ilin son gecəsi», Elçin. «Talvar».

*Qiymətləndirmə materialı:* S.Rüstəmxanlı «Sağ ol, ana dilim!».

c) İkinci mərhələ, «Müstəqillik dövründə ədəbiyyat (1991-ci ildən günümüzə qədər)»: Qısa icmal, Q.İlkin. «İntiqam», B.Vahabzadə. «İstiqlal», X.R.Ulutürk. «Qaytar mənim qüdrətimi, Azərbaycan!»

*Qiymətləndirmə materialı:* S.Əhmədovun «Dənizdən gələn səda».

MMV-lərdə «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri və s. verilir.

## 14. X sinif üzrə ədəbiyyat dərsliyi və MMV

X sinif üçün Ədəbiyyat dərsliyi *şifahi xalq ədəbiyyatı, qədim dövr, orta dövr və yeni dövr Azərbaycan I və II mərhələsinə* dair materialları əhatə edir. Dərsliyin əvvəlində «Dərsliklə necə işləməli?» sualına cavab olaraq, dərsliklə işləmə qaydaları göstərilir. *Layihə* (icmal materialları üzrə iş), *tətbiq, müzakirə, yaradıcı iş, məzmun üzrə iş, təhlil*

*üzrə iş* nəzərdə tutulmuş, hər bölmənin sonunda *qiymətləndirmə materialı.*

«Mətni oxuyun» başlığı altında dərsliyin qısa xülasəsi verilir.

**I bölmə.** «Şifahi xalq ədəbiyyatı» üzrə icmal materialı «Araşdırmaya hazırlaşın» tapşırığı ilə başlayır və yönəldici suallarla müşayiət olunur.

«Layihə» başlığı altında «Qədim dövr Azərbaycan ədəbiyyatı (ən qədim zamanlardan XIII əsrəı qədər)» icmal materialı təqdim olunur.

«Kitabi-Dədə Qorqud» eposu ilə bağlı yığcam məlumatdan sonra «Məzmun üz. iş» «Salur Qazanın evinin yağmalandığı boy». N.Gəncəvinin həya-tı, yaradıcılığı, «İskəndərnamə». (Məz. üz. iş-I, II d..), təhl. üz. iş (III,IV d.).

**Layihə** - Orta dövr Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər);

İ.Nəsiminin həyatı, yaradıcılıq yolu, «Sığmazam» qəzəli;

Ş.İ.Xətayinin həyatı, yaradıcılıq yolu, «Dəhnamə» poeması;

M.Füzulinin həyatı, yaradıcılıq yolu, «məni candan usandırdı...» qəzəli, «Leyli və Məcnun» poeması;

**Layihə** - Yeni dövr Azərbaycan ədəbiyyatı (I mərh.); «Koroğlu» eposu, «Həmzənin Qıratı qaçırması» q.; M.P.Vaqifin həyatı, yaradıcılıq yolu, «Pəri»;

**Layihə** - Yeni dövr Azərbaycan ədəbiyyatı (XIX əsr); Q.Zakirin həyatı, yarad. «Badi-səba mənim dərdi – dilimi...»; M.F.Axundzadənin həyatı, yarad. «Hekayəti-müsyö Jordan...», «Aldanmış kəvakib»; Aşıq Ələsgərin həyatı, yarad., «Dağlar»; S.Ə.Şirvaninin həyatı, yaradıcılıq yolu, «Guş qıl...» müxəmməsi; N.Vəzirovun həyatı, yarad., «Müsibəti-Fəxrəddin» faciəsi;

MMV-lərdə «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri və s.öz əksini tapır.

## 15. XI sinif üzrə ədəbiyyat dərsliyi və MMV

Dərslik XX əsr Azərbaycan ədəbiyyatı haqında qısa məlumatla başlanır.

*«Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü».* XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı, mətbuat, realist və romantik ədəbi məktəblər. C.Məmmədquluzadə, həyatı, yaradıcı..



«Anamın kitabı». M. Ə. Sabir, həyat, yaradıcılığı «Neylərdin, ilahi?!», H.Cavid, həyatı və yaradıcı. «İblis» faciəsi. Ə. Cavad, həyatı, yaradıcılığı. «Səsli qız» poeması.

*«Cənubi Azərbaycan ədəbiyyatı».* M.Şəhriyar, həyatı, yaradıcığı. «Türkün dili» şeiri

«Sovet dövrü Azərbaycan ədəbiyyatı». C.Cabbarlı, S.Vurğun, R.Rza və Mir Cəlalın həyat, yaradıc. «Oqtay Eloğlu», «Vaqif», «Qızılgül olmayaydı» «Açıq kitab» əsərlərinin məzmunu və təhlili üzərində iş.

«Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi" İ.Əfəndiyev, İ.Şıxlının həyatı, yaradıcılığı. «Xurşidbanu Natəvan» və «Dəli Kür» əsərləri

«Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı» B.Vahabzadənin yaradıcılığı. «Şəhidlər» poeması.

«Dünya ədəbiyyatından seçmələr» bölməsi:

Ç.Aytmatov, həyatı, yaradıcılığı. «Gün var əsrə bərabər» romanı.

MMV-lərdə «İllik planlaşdırılma»; «Mövzular üzrə məzmun standartlarının reallaşdırılması». Təlim məqsədləri və s.öz əksini tapır.

# ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu).
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI s.).
3. R.İsmayılov, D.Cəfərova, G.Xudiyeva, X.Qasımova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin V sinifləri üçün dərslik. Bakı, 2012.
4. R.İsmayılov, A.Rüstəmova, D.Cəfərova, Azərbaycan dili, V sinif (müəllim üçün metodik vəsait). Bakı, 2012.
5. R.İsmayılov, D.Cəfərova, S.Məmmədova. Azərbaycan dili ümumtəhsil məktəblərinin VI sinifləri üçün dərslik. Bakı, 2013.
6. A.Rüstəmova, R.İsmayılov, D.Cəfərova. Azərbaycan dili, VI sinif. (müəllim üçün metodik vəsait). Bakı, 2013.
7. R.İsmayılov, A.Rüstəmova, H.Allahverdi, S.Məmmədova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin VII sinifləri üçün dərslik. Bakı, 2014.
8. A.Rüstəmova, H.Allahverdi, D.Cəfərova, S.Məmmədova. Azərbaycan dili. VII sinif (müəllim üçün metodik vəsait). Bakı, 2014.
9. T.Hacıyev, S.Bektaşi, M.Vəliyeva, Y.Hüseynova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün dərslik. Bakı, 2015.
10. Y.Hüseynova, S. Bektaşi. Azərbaycan dili. VIII sinif (müəllim üçün metodik vəsait), Bakı, 2015.
11. T.Hacıyev, S.Bektaşi, Y. Hüseynova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin IX sinfi üçün dərslik. Bakı, 2016.
12. S.Cavadova. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin IX sinif (müəllim üçün metodik vəsait). Bakı, 2016.
13. T.Hacıyev, S.Bektaşi, Y.Hüseynova Azərbaycan dili. Ümumtəhsil məktəblərinin X sinfi üçün dərslik. Bakı, 2017.
14. T.Hacıyev, S.Bektaşi. Azərbaycan dili. Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik. Bakı, 2018.
15. A.Süleymanova, T.Bağırova, İ.Muradova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin V sinfi üçün dərslik. Bakı, 2012.
16. A.Süleymanova, T.Bağırova, İ.Muradova. Ədəbiyyat V sinif (müəllim üçün metodik vəsait). Bakı, 2012.



17. A.Süleymanova, T.Bağırova. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VI sinfi üçün dərslik. Bakı, Təhsil, 2018.
18. S.Əliyev, B.Həsənov, A.Mustafayeva, S.Mustafayeva. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin VII sinfi üçün dərslik. Bakı, Bakı, 2018.
19. S.Əliyev, B.Həsənov, A.Mustafayeva. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin X sinfi üçün dərslik. Bakı, 2017.
20. İ.Həbibbəyli, S.Əliyev, B.Həsənov, A.Mustafayeva. Ədəbiyyat. Ümumtəhsil məktəblərinin XI sinfi üçün dərslik. Bakı, 2018.
21. Ş.Mikayılov. Ədəbiyyat nəzəriyyəsi. IX-XI siniflər. Bakı, 2008.

***Əlavə ədəbiyyat:***

22. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialı- Abdulla Qəhrəmanov, Milli Kurikulum üzrə təlimçi-mənbə: abdullaqehreman@mail.com.
23. Azərbaycan Respublikası Təhsil Sektorunun inkişafı üzrə ikinci layihə çərçivəsində paylama mat., Bakı, 2012.
24. H.Balıyev, A.Balıyev. Azərbaycan dilinin tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı, 2014.

## QEYD

**İF-M2512 “ORTA MƏKTƏBLƏR ÜÇÜN AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI PROQRAMI VƏ DƏRSLİKLƏR” FƏNNİNİN PROQRAMI**

---

Kağız formatı: 60x84, 1x16
Fiziki çap vərəqi: 1,5
Tirajı: 50 ədəd